**Səlcuq sultanlarından Alp Arslan və Məlikşah dövründə dövlətin sərhədləri genişlənib möhkəmlənir. Ölkənin iqtisadi qüdrəti artır. Elm və mədəniyyət inkişaf edir. Dövlət və din xadimləri hazırlamaq məqsədilə xüsusi mədrəsələrin açılmasına təşəbbüs göstərilir.**

# Həsən ibn Əli Xacə Nizamülmülk



*Səlcuq imperiyasının belə çiçəklənib və möhkəmlənməsində müdrik və ağıllı vəzir Həsən ibn Əli Xacə Nizamülmülkün müstəsna xidmətləri olur...*

O, bir çox dövlət əhəmiyyətli işlərlə bərabər, həm də istedadlı gənclərin hazırlanması və onların dövlət işinə cəlb olunmasını zəruri hesab edir. Bu yolda ciddi addımlar atır. Mədrəsələrdə təhsil alan istedadlı gənclərdən bir çoxu Xacə Nizamülmülkün təqdimatı ilə sarayda dövlət işinə cəlb olunur... Onlardan biri də Həsən Səbbah olur. O ilk gündən işgüzar və bacarıqlı bir gənc təsiri bağışlayır, həm də Xacə Nizamülmülkün yaxın dostu olur... Sarayda maliyyə-vergi sahəsində çalışır. Az bir vaxt ərzində saray həyatının bütün sirlərinə vaqif olur. Özünə xeyli tərəfdar toplayır. İşlədiyi müddətdə bu sahədə xeyli pozuntu, hərc-mərclik, yeyinti və mənimsəmələrin olduğunu görür. Fikirləşir ki, əgər yoxlama olarsa Nizamülmülkün nələr etdiyi üzə çıxar. Bu vəziyyətdən istifadə etməklə o, böyük rütbə əldə edə bilər... O, çox ciddiyyətlə çalışır. Özünün Nizamülmülk tərəfindən daha irəli çəkilməsini gözləyir.

Lakin ondan az istedadlı olmayan, üstəlik də vəzirlikdə böyük təcrübə toplamış Nizamülmülk onu gözdən qoymur. İnanılmış adamları vasitəsilə onun nələr danışdığını, nə fikirdə olduğunu öyrənir. Onu irəli çəkməkdə tələsmir. Bu iki köhnə dost arasında hələ aşkara çıxmamış gizli bir mübarizə gedir. Biri hakimiyyətə can atır, o biri hakimiyyəti əldə möhkəm saxlamağa çalışır... Həsən Səbbah səlcuq sultanlarının sarayına Nizamülmülkün təqdimilə gəldiyindən tezliklə böyük etimad və ehtibar sahibi olur. Alp Arslan ona inanır, hüsn-rəğbət bəsləyir, istedad və işgüzarlığını dəyərləndirir. Bu Nizamülmülkün diqqətindən yayınmır. Daha ehtiyatlı olmağa çalışır. Bir müddət belə keçir...

Yerli-yersiz təriflər, hörmət və ehtiramlar onu çaşdırır, şan-şöhrətdən başı dumanlanır. Nizamülmülkün rəqibləri vasitəsilə sultana çatdırır ki, hökumətin maliyyə-vergi işləri yaxşı vəziyyətdə deyil. Xeyli mənimsəmə və yeyinti var. Xəzinədə böyük çatışmazlıq aşkar olub. Hər halda, yoxlamaya, hesabata ehtiyac var... Nəhayət, bir gün Alp Arslan toplantı çağırır, Nizamülmülkə belə bir tapşırıq verir: vilayətlər üzrə bütün ölkə haqqında səhih hesabat hazırlasın... O, vəziyyətin necə və nə yerdə olduğunu başa düşür. Bilir ki, sultanın gözlənilmədən belə hesabat istəməsi yaxşı niyyətlə deyil...

Alp Arslan bu iş üçün nə qədər vaxt lazım olacağını soruşur. Nizamülmülk deyir: altı ay. Orada toplanmış əlaqədar adamlar arasında olan Həsən Səbbah yerindən qalxır və baş əyir. Bu iş ona tapşırılarsa iki həftə ərzində hesabatı hazırlayar. Bu təklif Nizamülmülkü çox sarsıdır. Ancaq özünü itirmir, birtəhər özünü cəmləyib dayanır. Başa düşür ki, Həsən Səbbahda hazır hesabat var. Çünki bu böyüklükdə ölkənin hesabatını iki həftəyə hazırlamaq heç də asan iş deyil...

Alp Arslan təklifə razı olur. Hesabatın hazırlanmasını Həsən Səbbaha tapşırır. Nizamülmülk fikirləşir: hesabat baş tutarsa bu onun hüquqlarının alınmasının başlanğıcı olacaq. Ona görə də dərhal tədbir düşünür. Yaxın və inanılmış adamlarını Həsən Səbbahın köməkçi qrupuna daxil edir. Onlardan birinə tapşırır ki, onun bütün hərəkətlərini izləsin, gördüyü işləri nəzarət altında saxlasın, hesabatın vəziyyəti barədə ona məlumat versin... Hesabat veriləsi gün təyin edildikdə Nizamülmülk adamına tapşırır ki, dəftərlərin içərisində ki vərəqlərin yerini dəyişsin. Bəzi vərəqləri bu dəftərlərin arasından götürüb başqa dəftərin arasına qoysun...

Nəhayət, hesabat günü gəlib çatır. Lazım olan adamlar toplanır. Hesabatın dəftərlər siyahısı sultanın qarşısına qoyulur. Sultanın maraqlandığı ölkə, vilayət və şəhərlərin adı çəkildikcə Həsən Səbbah dəftərləri götürüb oxuyur.

Oxuduqca başa düşür ki, hər şey alt-üst olub. Bu dəftərlər əsasında hesabat vermək tamam rüsvayçılıqdır. Alp Arslan bundan bərk qəzəblənir. Onun hüzurunda belə hətərən-pətərən şeylər oxumağa necə cəsarət etdiyini soruşur. Bu zaman Nizamülmülk bir küncdə oturub hesabatın necə qurtaracağını müşahidə edirmiş. Sultanın qəzəbləndiyini görüb ayağa qalxır və baş əyir: "Hökmdarım, görürsünüz ki, belə ciddi və məsul işin az bir vaxtda yerinə yetirilməsi və özü də belə bir istedadsız adama tapşırılması nə deməkdir?"

Həsən Səbbah təhqir edilmiş, rüsvay olunmuş halda sultanın hüzurundan qovulur. Hesabatın yenidən hazırlanması Nizamülmülkə tapşırılır. Həsən Səbbah isə oradan Bağdada, Bağdaddan da Misirə gedir. Sonra Nizamülmülkdən və səlcuq xanədanından intiqam almaq üçün İrana qayıdır...

**Haşiyə:** ürəyə şübhə və inamsızlıq toxumu düşdümü, o mütləq cücərəcək. Su tökəni çox olduqca daha tez göyərəcək, qida verəni bol olduqca daha çox qol-budaq atacaq. Sarayda bunların hamısı qat-qat çoxdur. Hərəmxanada -xatunlar və xədimlər, divanxanada - xainlər və xadimlər...

Aylar, illər bir-bir gəlib keçir. Vaxt gəlir, zaman dəyişir. Alp Arslan da dünyadan köçür. Onun yerinə Məlikşah hökmdar təyin olunur. O da Nizamülmülklə xeyli işləyir. Ancaq Məlikşaha vəliəhd seçmək məsələsində Xacə Nizamülmülklə sarayın baş xatunu Türkan xatunun fikirləri toqquşur. Münasibətlər gərginləşir və pozulur.

O, Nizamülmülkdən intiqam almaq üçün tədbirlər düşünür. Belə qərara gəlir ki, Məlikşahla onun arasını vurmaq, vəzirlikdən uzaqlaşdırmaq, adamlarını vəzifələrdən qovmaq və Nizamülmülk hökmranlığına son qoymaq. Daha doğrusu, o, özündən əvvəlki Alp Arslanın vəziri Əmdülmülkü hansı yolla aradan qaldırmışsa, o üsul ilə də onun özünü məhv etmək lazımdır.

Baş hərəm fitnə-fəsada başlayır. Məlikşahın sultanlığ hissinə toxunur. Deyir: ölkəni o yox, Nizamülmülk idarə edir. Onun başı ov, əyləncə, dövlətə dəxli olmayan işlərə qarışıb... Belə sözlərlə hər gün, hər gecə onun qulağını doldurur. Bəd söz də çayır toxumu kimidir. Hansı qulağa düşdüsə, kök atıb cücərəcək. Ürəyə keçsə tikan kimi dəlib keçəcək. Məlikşaha deyilən sözlər isə düz onun ürəyinə dəyirdi. Çox keçmir şübhələr sultanı ağuşuna alır. Məlikşah saatlarla oturub Nizamülmülkün onun xilafına nələr gördüyünü düşünür. Türkan xatun tərəfindən alovlandırılan cəza közünün şölələnməsi üçün Nizamülmülk, ya da onun adamları tərəfindən bir yanlış hərəkər bəs edirdi. Belə bir hadisə İsfahandan uzaqda Mərv şəhərində baş verir.

Xacənin oğlu Osman Mərvin hakimi olur. Onunla Mərvin hörmətli bir şəxsi, sultanın yaxın adamı arasında ixtilaf baş verir. Osmanın əmri ilə həmin adam tutulur. Sonra da buraxılır. O da sultanın hüzuruna gəlir və əhvalatı olduğu kimi danışır. Osmanın hərəkətləri sultanı qəzəbləndirir. Deyir: "Xacəyə çatdırın ki, o ölkəyə mənimlə şərikdirsə, bu başqa məsələ, yox əgər mənə tabedirsə, nə üçün özünü saxlamır. Onlar bütün dünyanı öz əllərinə alıblar. Hətta o dərəcəyə çatdırıblar ki, bizim də adamlarımıza hörmət qoymurlar. Yoxsa, istəyirsən əmr edim sənin qələm-dəvatını əlindən alsınlar".

Onlar Xacənin yanına gəlib sifarişi çatdırırlar. Xacə bundan bərk inciyib hirslənir və deyir: Sultana deyin ki, məgər o indiyə qədər bilmirdi ki, ölkədə mən onun şərikiyəm. O, bu mərtəbəyə mənim tədbirim sayəsində çatıbdır. Deyin ki, o tac bu qələm-dəvata bağlıdır. Bu qələm-dəvatı alsa, o tacı da ondan alarlar. Xacənin hirsi yatdıqdan sonra bir daha deyir: Mən bu sözləri əsəbiləşdiyim üçün dedim. İstəyirsiniz, bu sözləri eynən olduğu kimi sultana çatdırın. İstəyirsiniz, necə məsləhət bilirsiniz, hamınız birlikdə o cürə də deyin.

Onlar sultanın yanına gəlir və birlikdə deyirlər: Xacə ərz etdi ki, o sizin kiçik qulunuzdur. Oğlanları da nökəriniz. Sultanın əmri onların canları, mal-dövlətləri üçün məcburidir. Necə əmr edilərsə, eləcə də yerinə yetiriləcək. Öz övladlarına elə bir qulaqburması verəcək ki, qalanlara da ibrət dərsi olsun.

Sonra məclis xali olur, həmin adamlardan biri sultana yaxınlaşıb deyir: Xacənin sultana qul olduğu haqqında sizə deyilən sözlər xacənin cavabı deyildir. Xacə elə dedi, belə dedi... Sultan bir az fikrə gedir və bu sözün üstündən keçir. Xacə isə vəzirlikdə, öz yerində qalıb işləməkdə davam edir.

Nizamülmülk 1092-ci il tarixdə Nahavənd yaxınlığında olarkən dərviş paltarında bir adam ona yaxınlaşır. Məktub verəcəyini bildirir. Xacə onu yaxına buraxır. Məktubu aldıqda dərviş xəncərlə onu vurur. Belə qeyd edilir ki, həmin dərviş Həsən Səbbahın fədailərindən Əbu Tahir olur...

Rəvayətə görə, Nizamülmülk öldürüldükdən sonra Məlikşah son dərəcə kədərlənir. Xəlifə üç gün Bağdadda matəm saxlayır. Türkan xatun qara geyinir...

**Matəm mərasimi qurtarandan sonra Məlikşah Xəlifənin Bağdadı tərk etməsini tələb edir. Xəlifə ondan on gün möhlət istəyir. Möhlətin doqquzuncu günü Məlikşah zəhərlənib öldürülür...**

● **Savalan FƏRƏCOV**